


شنبه 05 آبان 1397 - 09:54

## [AXCP zvlri REAL-a sz atr, qar trf is... - AIQLAMA]

Son gnlr sosial bklrd Azrbaycan Xalq Cbhsi Partiyasnn zvlri il REAL Partiyasnn nmayndlri

?atrasnda qarlql ittihamlar, atmacalar mahid edilir. Bunlar ndn qaynaqlanr

Arannews-“Rhbrlik sviyysind n REAL Partiyas, n d Azrbaycan Xalq Cbhsi Partiyas bir-birlrin qar ittihamlar sslndirmyib, siyasi polemika yaanmayb”.Bunu Modern.az-a adıçəkilən partiyaların üzvlərinin sosial şəbəkələrdə bir-birinə qarşı ittihamlar səsləndirməsinin səbəblərindən danışakən Respublikaçı Alternativ Partiyasının Ali Məclisinin üzvü Natiq Cəfərli söyləyib. O qeyd edib ki, partiya üzvlərinin müstəqil fikir səsləndirməyinə müdaxilə edilə bilməz:“Hər iki partiyanın üzvlərinin sayı kifayət qədər çoxdur. Təkcə REAL-ın rəsmi üzvlərinin sayı 2400 nəfərə yaxındır. Partiyadaxili demokratiya isə yüksək səviyyədədir və insanların öz fikirlərini sərbəst ifadə etmələrinə imkan yaradılıb. Ona görə, “REAL”çıların tamamının yazılarına nəzarət edilməsi nə mümkündür, nə də lazımdır. Partiyaların sıravi üzvləri arasında belə polemika gedirsə, bu normal qarşılanmalıdır. Çünki bəzi məsələlərə baxış istiqaməti müxtəlifdir. Hamımız eyni cür düşünsəydik, ayrı-ayrı partiyaların olmasına ehtiyac qalmazdı. Fikir ayrılıqlarına siyasi rəqabətin tərkib hissəsi kimi baxmaq lazımdır. Yenə təkrar edirəm, rəhbərlik səviyyəsində hər hansı siyasi qarşıdurma, ”iddiaların səsləndirilməsi halları olmayıb


قدرت گرفته از پرتال شمس - ITShams.ir